**Məhkum olunmuş şəxslərin verilməsi haqqında 1983-cü il tarixli Avropa Konvensiyası barədə**

**M Ə L U M A T**

Məhkumların verilməsi haqqında Konvensiya, müəyyən şərtlər altında, azadlıqdan məhrumetmə cəzası almış şəxslərə cəzalarını çəkmək üçün öz ölkələrinə verilməsi imkanını yaradır.

Həmin şərtlərin qısa izahı burada verilir. Bu sənəd Konvensiyanı hərtərəfli təsvir etmir. Bu səbəbdən, əgər cəzanızı çəkmək üçün Azərbaycan Respublikasına verilməyinizin mümkünlüyünü araşdırmaq istəsəniz, daha ətraflı məlumat almaq, məsələn konvensiyanın surətini əldə etmək və ya verilməyinizin mümkünlüyünə hər iki Dövlət tərəfindən baxılması üçün cəzaçəkmə müəssisəsinə və ya Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə müraciət edin. Həmçinin, məlumat barədə hər hansı sorğunuzu Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə də ünvanlaya bilərsiniz.

Konvensiyanın tətbiq olunması

Məhkum olunduğunuz Dövlət və vətəndaşı olduğunuz Dövlət (Azərbaycan Respublikası) hər ikisi Konvensiyaya Tərəf olduqda.

Verilmə üçün aşağıdakılar tələb olunur:

a. müvafiq şəxsin (məhkumun) və ya zəruri olduqda onun hüquqi nüməyəndəsinin razılığı;

b. onun məhkum olunduğu Dövlətin razılığı; və

c. verilmə barədə sorğunun edildiyi Dövlətin razılığı.

Azərbaycan Respublikasına verilmədən kim yararlana bilər?

Əgər aşağıdakı şərtlər yerinə yetirilərsə Siz Azərbaycan Respublikasına verilə bilərsiniz:

a. Siz Azərbaycan Respublikasının vətəndaşı hesab olunduqda;

b. Cəzanızı təyin edən hökm yekun olduqda;

c. ümumi qayda olaraq, cəzanızın ən az altı ay müddəti qaldıqda, lakin müstəsna hallarda bu müddət daha qısa ola bilər; və

d. Mühakimə olunduğunuz hüquq pozuntusu Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət olduqda.

Verilmədən sonra "Cəzanın uyğunlaşdırılması" proseduru

Orijinal cəza Azərbaycan Respublikasının səlahiyyətli məhkəməsi tərəfindən verilmədən sonra Azərbaycan Respublikasının qanunvericiliyində olan cinayət qanunvericiliyində olan cəzaya uyğunlaşdırılmalıdır. Uyğunlaşdırma proseduru verilmədən sonra həyata keçirilir və orijinal cəzanın Azərbaycan Respublikasında uyğunlaşdırılacağı cəzanın xarakteri və müddəti barədə müəyyən təssüratınız olacaqdır ki, verilmə baradə qərar verməyə Sizə yardımçı olsun. Konvensiyanın şərtlərinə əsasən, bu cür uyğunlaşdırılan cəza orijinal cəzadan daha ağır və ya uzun olmayacaqdır, Azərbaycan Respublikasının qanunvericiliyinin cinayətə görə nəzərdə tuta bildiyi hər hansı minimallığa məruz edilməyəcəkdir, və verilmədən əvvəl həbsdə keçirilən tam müddəti nəzərə alacaqdır. Bilməlisiniz ki, verildikdən sonra cəza verən Dövlətdə mümkün olan azadedilmə şərtləriniz artıq tətbiq olunmmayacaqdır və onlar Azərbaycan Respublikasında tətbiq olunanlarla əvəz edilir. Bu, Sizin şərti azadlığa buraxılma imkanınızın tarixinə və ya

cəzanızın icrası ilə bağlı digər məsələlərə təsir edə bilər. Əgər verilmisinizsə, cəzanız Azərbaycan Respublikasında tətbiq olunan qanun və qaydalara əsasən icra ediləcəkdir.

Digər cinayətlərə görə cinayət təqibi

Lütfən nəzərə alın ki, verildiyiniz təqdirdə Azərbaycan Respublikasının səlahiyyətli orqanları hazırkı cəzanızın verildiyi cinayətdən başqa hər hansı digər cinayətə görə Sizə qarşı cinayət təqibi apara, cəza çıxara və ya Sizi həbs edə bilər.

Əfv, amnistiya, cəzanın əvəz edilməsi:

Verilməyiniz cəza verən və ya Azərbaycan Respublikası tərəfindən çıxarılan hər hansı əfv, amnistiya və ya əvəzetmə qərarından yararlanmağınıza mane olmur.

İlkin hökmə yenidən baxılma

Verilməyinizdən sonra cəza verən Dövlətdə çıxarılan orijinal hökmə yenidən baxılmanı əsaslandıracağını hesab etdiyiniz yeni məlumat ortaya çıxarsa, yalnız cəza verən Dövlət hər hansı yenidən baxılmanın tətbiqi məsələsi üzrə qərar verir.

İcranın ləğv olunması

Əgər hər hansı səbəbə görə cəza verən Dövlətdə çıxarılan orijinal cəza - cəza verən Dövlətdə icra edilməsi dayandırılırsa, Azərbaycan Respublikasının səlahiyyətli orqanları bu barədə məlumat aldıqdan dərhal sonra Sizi cəza çəkməkdən azad edəcəklər. Eynilə, Azərbaycan Respublikasında cəzanın icrası dayandırarsa, Sizdən cəza verən Dövlətdə çıxarılan orijinal cəzanı oraya qayıtdıqda sonra çəkmək tələb olunmayacaqdır.

Prosedur haqqında məlumat

Verilməkdə maraqlı olduğunuz barədə cəza verən və ya Azərbaycan Respublikasının aidiyyəti orqanlarına məlumat verə bilərsiniz.

Cəza verən Dövlətin orqanları verilməyiniz məsələsinə baxmağa hazır olduqda, onlar Azərbaycan Respublikasının səlahiyyətli orqanlarına barənizdə, məhkum olunmağınıza və cəzanıza dair faktlar və cəzanızın xarakteri və müddəti haqqında məlumat verəcəklər. Azərbaycan Respublikasında məhkumun qəbul edilməsi barədə qərarı səlahiyyətli orqan olan Ədliyyə Nazirliyi tərəfindən qəbul edilir.

Hər iki Tərəf verilməyinizə razı olduqda, Azərbaycan Respublikası tərəfindən təqdim olunan məlumatları alıb nəzərdən keçirdikdən sonra, Sizdən verilməyə razı olub olmadığınız soruşulacaqdır.